Hər iki ölkənin təhsil nazilrikləri arasında mövcud olan əməkdaşlıq nəticəsində Rusiya tərəfi Azərbaycan Respublikası Təhsil Nazirliyinin təkliflərini qəbul edərək azərbaycanlı gənclərin təhsil almaları üçün prioritet ixtisaslar üzrə ən nüfuzlu universitetlərin adlarını açıqlayıb. Bu ali məktəblər arasında N.E. Bauman adına Moskva Dövlət Texnologiya Universiteti, Moskva Aviasiya İnstitutu, Dövlət İdarəçilik Akademiyası, Rusiya Dövlət Turizm və Xidmət Universiteti, Sankt-Peterburq Dövlət Universiteti, "Stankin" Moskva Dövlət Texnologiya Universiteti, Sankt-Peterburq Dövlət Politexnik Universiteti, Sankt-Peterburq Dövlət İqtisadiyyat və Maliyyə Universiteti, Kazan Dövlət Texniki Universiteti, Moskva Dövlət İqtisadiyyat, Statistika və İnformatika Universiteti və digər universitetləri qeyd etmək olar.

Ayrılan kvota çərçivəsində Rusiya ali məktəblərində təhsil ödənişsizdir. Yataqxana və digər xərcələrin ödənilməsi məsələləri isə qəbul olunacaq Azərbaycan Respublikası vətəndaşlarına aiddir. Tələbənin illik tibbi sığortalanması məcburidir (250 ABŞ dollarından yuxarı). Tələbələr həm Rusiya, həm də Azərbaycan tərəfindən aylıq təqaüdlə təmin olunacaq və ildə bir dəfə yay tətili müddətində onların təyyarə ilə gediş-gəliş xərcləri Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən ödəniləcəkdir.

Rusiya ali məktəblərinə qəbul Təhsil Nazirliyinin müvafiq sifarişinə əsasən Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən aparılır.

Bu günlərdə TQDK tərəfindən qəbul ilə bağlı müvafiq elan veriləcəkdir.